# ODDAN KEÇMƏYİN YANĞISI,

## *yaxud şair Rafiq Musanın «Od içindən keçən yol» poemasının ikinci hissəsi üzərində düşüncələr*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

Mən «Kredo» qəzetinin təkcə oxucusu deyiləm, həm də bu qəzetin çox ciddi təəssübkeşi və müəlliflərindən biriyəm. Redaksiya heyətinin üzvü olaraq üzərimə düşən məsuliyyəti də qətiyyən unutmuram.

Yayın qızmar günlərində redaksiyanın əməkdaşları məzuniyyətə getdilər. Doğrudur, elə də uzun fasilə olmadı, amma mən hər həftə «Kredo»-nun intizarını çəkdim. Həmin günlərdə başa düşdüm ki, «Kredo» artıq məni üçün mənəviyyat məsələsidir. Yəni ruhumun tələbatını mənəvi mühitimin aclığını bu qəzet kifayət qədər təmin edir. Ayrı-ayrı yazıları oxuduqca mənəvi zövq alır, yüksək bədiiliklə yazılmış əsərləri ruhuma çəkdikcə xüsusi məmnunluq duyuram.

«Kredo» qəzetinin 10 sentyabr 2025-ci il tarixli 24(1280) saylı nüsxəsini vərəqləyirəm. Birinci səhifədə verilmiş yazının sərlövhəsi diqqətimi cəlb edir: «Bədnam Ohanyan xəttində əncir təntənəsi, yaxud Quycaq haqqında nikbin elegiya». Başlıq kifayət qədər təsirlidir və təsirli olduğu qədər də qabaqcadan yazının mahiyyətinə işıq salır.

Planımda olmasa da artıq əhmin yazını oxuyuram. Oxuduqca da müharibənin dəhşətləri gözlərimin önündən keçir. Qarabağın viran qalmış kəndlərini bütün yaraları ilə gözümün önünə gətirən bu yazıdan aldığım təəssüratı uzun müddət unuda bilmədim. Bir düşüncəmdə belə bir aydın fikir dolandı; Bəli, müəllif - yəni Əli Rza Xələfli bir qərinə ərzində çəkdiyi ağrı-acıları bu yazının nüvəsinə gətirib. Hətta elə məqamlar var ki, qandonduran səviyyədədir. Onda mənə aydın oldu ki, «Kredo» qəzetində ayrı-ayrı sənətkarların, şairlərin, publisistlərin, tənqidçilərin Əli Rza Xələfli haqqında yazdıqları onun öz həyatı ilə tam səsləşir. Bəli, o, ədəbiyyatımızda işğalın bütün ağrılarını varlığında bütün ağırlığı və ağrıları ilə yaşmış söz adamıdır. Deməli, təbiidir ki, söz sahibləri onu sözdən kənarda qoymurlar. Elə qəzetin haqqında söhbət açdığım sayında şair Rafiq Musanın «Od içində keçən yol» poemasının ikinci hissəsini də birinci yazının təəssüratı altında oxumağa başladım. Ə.R.Xələfli öz yazılarında tez-tez deyir ki, insanı tanımaqdan çox onu başa düşmək lazımdır. Elə mən də R.Musanın «Od içindən keçən yol» poemasının ikinci hissəsini oxuya-oxuya həm onun özünü, həm də poemanın müəllifini başa düşməyə çalışdım.

Necə olur ki, söz yanğıya çevrilir, həm yazanı yandırır, həm də öz oxucusunu. Əgər müəllif mövzunun ən ağrılı yerini görürsə, o ağrılı yerin göynəmini öz canında hiss edirsə, deməli, yazı da təsirli alınacaq. Yazının oxucunun ruhuna sirayət etməsi məhz bu yanğı ilə bağlıdır. Əks təqdirdə oxucu hər hansı bir materialı sadəcə məlumat kimi oxuyacaq, yaxud elə gözdən keçirəcək.

Yaxşıdır ki, R.Musanın poemasında həsrət yanğısı qabarıq hiss olunur. Hətta elə məqamlar, elə misralar oxunur ki, onun göynəmi oxucunun varlığından iynə sancılmış kimi keçir.

Professor Qəzənfər Kazımov əvvəllər Ə.R.Xələflinin «Araz ağrısı» poemasından danışarkən belə bir fikir yazmışdı: «Əsərin lirik ovqatı insanın varlığını közərmiş şiş kimi dağlayır». İndi mən həmin sözləri R.Musanın əsərini oxuyarkən bir daha xatırladım. Xalq arasında təsadüfi demirlər ki, söz sözü çəkir. Əlbəttə, təsadüfi söz özündən sonrakı sözü çəkib gətirə bilməz. Gərək məqsədə, mərama uyğun olan sözün arxasınca gedəsən.

Axır ki, R.Musanın «Od içindən yol» poemasının ilk bəndlərini diqqətimdən keçirirəm. Hələ onu da deyim ki, əsəri ikinci, üçüncü dəfə oxudan sonra düşüncələrimi yazıya gətirmək istəyi məndə baş qaldırdı. Ənənəvi olaraq müəllif əsərin ilk miaralarında yazıya, həyat həqiqəti ilə bəddi həyat arasındakı mövqeyinə aydınlıq gətirir:

Nəyinsə xətrinə söz deməmişəm,
Dediyim hər sözün yiyəsiyəm mən.
Dostlarla birlikdə vaxt tapan kimi
Şairlə görüşə gedəsiyəm mən.

Aradan vaxt ötüb, zaman keçsə də,
Sabaha salmışıq səfərimizi.
Şairin "əlində yağı daşsa da",
Heç hara o getməz, gözləyər bizi.

Var olsun dostluğa dəyər verənlər,
Dost evi dost üçün ocaqdı, pirdi.
Biz dünən şairə zəng eləmişik,
O, bizim səfərdən xəbərdar idi.

Əlbəttə, əsas təfsilatlar, şübhəsiz, əsərin birinci hissəsində var. Birinci hissədə müəllif dostu ilə ilk tanışlığın zamanına qayıdır, tələbəlik çağlarını xatırlayır. Ən başlıcası, Qarabağın həsrətini çəkdiyi illərdə onun çox ağrılı iztirablarını təsirli bədii lövhələrlə canlandırır. Nəhayət, dostunun iş yerində onun yaradıcılıq laboratoriyasındakı «Kredo» qəzetindəki fəaliyyətini qələmə alır. Lökbatandakı evində balaca baxçasında qonaq olur, təəssüratlar bəzən nikbin, bəzən də bədbin bir əhvalla yazıya gəlir. Amma indi vəziyyət başqadır. Dəmir yumruq Qarabağı düşmən işğalından azad edib. Qarabağ indii özünün ilk doğma sakinlərini qarşılamaqdadır. Ən sevindirici fakt budur ki, Qarabağa - yəni əsərin qəhrəmanının doğulub böyüdüyü Cəbrayıla da ilk köç başlayıb. Daha bir ovqata xoş əhval bəxş edən fakt budur ki, ilk köçün səfərdaşlarından biri də elə poema müəllifinin dostudur. O, artıq Cəbrayılda geniş və rahat mənzillə təmin olunub.

Biz Cəbrayılın ayrı-ayrı görüntülərini televiziya ekranlarından izləmişik. Yeni şəhər Avropanın ən müasir dəbdə inşa olunan yaşayış yerləri ilə müqayisədən geri qalmır. Deməli, əsərin lirik «məni», yəni müəllif obrazında təqdim olunan şair öz dostları ilə birlikdə Cəbrayıla - dostu şairgilə qonaq gedirlər. İlk hazırlıqlar, həyəcanlar, yolu necə gedəcəklər, işğaldan azad olunmuş torpaqlara necə qədəm qoyacaqlar - bunlar artıq poemada obrazlı deyimlərlə təsəvvürdə canlanır.

Müəllif dostunun dostcanlı olduğunu da unutmur. Bilir ki, səfərdən xəbərdar olan şair dostu artıq onu intizarla gözləməkdədir:

Dosta dost sevgisi tükənən deyil,
Biz yaxşı işlərin sorağındayıq.
Yola çıxmağımız səbəbsiz deyil,
Dünənki söhbətin marağındayıq.

Deyilən vədənin bu gündür vaxtı,
Bizim səfərimiz Cəbrayıladır.
Saməddin, İsmayıl, Arif, Mircəlal
Bugünkü səfərdə "üzüyoladı".

"Ya Allah" söyləyib yola çıxmışıq,
Əli Rza Xələfli gözləyir bizi.
Onunla görüşə tələsirik biz,
Yollarla bölürük sevincimizi.

Dostların adları çəkilir, onların hər birinin həyəcanları xüsusi könül ovqatı yaradır. Saməddin, İsmayıl, Arif, Mircəlal... səfərin iştirakçısıdır. Onlar şairin ədəbi sakin olduğu Cəbrayıla min həvəslə can atırlar. Hətta yolüstü başqa bir dostu da özləri ilə götürmək niyyətindədirlər:

Yaman tələsirik dost görüşünə,
Heyf ki, maşının yoxdur qanadı.
Uğurlu olubdu səfərlərimiz,
Xoş anlar, xoş günlər yaddaşımdadı.

Şəhərin öz yeri, kəndin öz yeri,
Hər kəs Vətənini öz evi bilir.
Atalar deyəni biz də deyirik:
Kəndin abadlığı yoldan başlayır.

Ağaclar yolların yaraşığıdır,
Gah sola baxırıq, gah da ki sağa.
Yolların sığalı göz oxşamaqda,
İnsan valeh olur bu rahatlığa.

Yolboy maraqlı təsvirlər, yaşıllıqlar, Azərbaycan diyarının müstəqillik dövründəki inkişafı dəyişən və daha gözəl göz oxşayan mənzərələr poetik təsvirlərlə yaddaşa hopur.

Müəllif burada şəhər və kənd müqayisələri aparır. Zənnimcə, müəllifin məqsədi burada vətənin hər parçasının gözəl olduğuna, insanın könül xoşluğuna qaynaq olduğuna inamı təlqin etməkdir. Həqiqətən üzü Qarabağa sarı gedən yolun hər tərəfi indi yaşıllıqlara qərq olub. Xüsusilə, zeytun meşəlikləri, şam pöhrəlikləri göz oxşayır. Müəllif Hacıqabulu təsadüfi xatırlamır:

Enişə çatırıq, yol haçalanır,
Yolumuz hələ də olmayıb yarı.
Sağdakı yol dönür Hacıqabula,
Soldakı yol gedir Şirvana sarı.

Ürəklər oxşayan şəhərə bir bax,
Burda gözəlliklər aşıb-daşıbdı.
Sən deyən, bu şəhər belə deyildi,
Doğrudan, nə gözəl abadlaşıbdı.

Bu şəhər tanışdı əməlləriylə,
Elmdə-təhsildə örnəkdir, örnək.
Sükutla ötməyək Hacıqabuldan,
Uzaqdan olsa da, bir salam verək.

Tələbə dostları unutmaq olmaz,
Şirin söhbətləri qalıb yadımda.
Sayılıb-seçilən maarifçi kimi
Təhsildə tanınıb Balaxanım da.

Bəli, onlar Hacıqabuldan yan' keçmirlər. Azərbaycanda tanınmış müəllimlərdən biri Balaxanım Ələsgərova burada yaşayır. Onunla da görüşmək, hal-əhval tutmaq, səfərlərinin məqsədini demək - bir növ ondan da xeyir-dua almaq niyyətindədirlər.

Rafiq Musanın poeması elə ilk bəndlərindən göründüyü kimi çox canlıdır. Çünki onun əsərlərinin qəhrəmanları elə müasirləridir, yaxşı tanıdığı, bir çox ilə doğma ünsiyyətdə olduğu görünür. Bəziləri ilə də indii texniki imkanlar daxilində canlı görüntülərlə əlaqə saxlayır. Beləliklə, insanların mənəvi yaxınlığı, ruh doğmalığı qırılmaz ünsiyyəti təmin edir.

Hələ daha bir dostları ilə də görüşmək niyyətindədirlər. Hələ ki, o, Balaxanım müəllimin pedaqoji fəaliyyətində fədakarlığını qeyd etməyə bilmir. Zənnimcə, bu da müəllifin əsas obrazı bütün canlılığı ilə təsvir etmək istəyindən irəli gəlir:

Yəqin, qulağına səs düşüd indi,
Ondan uzaq olsun hər cadu-ovsun.
Əlimiz çatmayır, ünümüz yetər
Bizdən bacımıza salamlar olsun!

Kimsə soruşmasın məndən, əzizim,
Sənin bu şəhərə maraq nədəndi?
Sualın cavabı hər kəsə bəlli,
Tələbə bacımız bu şəhərlidi.

Yolun rahatlığı xoş olsa belə,
Mircəlal nədənsə narahat idi.
Elə bil, nəyisə tapanlar kimi
Bir az da vurnuxub astadan dedi:

Əsər boyu müəllif obrazları danışdırır, onların fikir və qənaətlərini bölüşür. Əsas düyğulanmaları ilə kimin hansı istəkdə olduğunu diqqətə çatdırır. Bu da əlbəttə, əsərin canlılığına təsir edir. Yolda Mircəlalın təklifin deyəsən dostların hər birinin ürəyincə olur. Axı Şirvan şəhərində də onların daha bir dostu var. Tələbəlik illərindən yaxşı tanıdıqları Vilayətlə görüşmədən onun şəhərinin yanından necə səssiz ötmək olar? Təəssüratdan, bədii təsvirlərdən belə başa düşülür ki, Vilayət onlarla qəlbbir, canbir dostdur. Hələ vaxtilə onun da qonağı olublar.

*(Davamı 11-ci səhifədə)*

*(Əvvəli 10-cu səhifədə)*

Vilayətin təbiətindəki doğmalıq, qonaqpərvərlik, istilik dövrümüzün hər bir şəxsi üçün nümunə ola biləcək səviyyədədir. Bəli, buradaca Mircəlalın təklifi yerinə düşür:

- Deyirəm, qağamız özgəsi deyil,
Çoxdandır biz ondan tutmuruq soraq.
Bizim Vilayətə xoş olsun deyə,
Bəlkə, yolumuzu Şirvandan salaq.

Haqqına tapınan haqlıdır, bəli,
Əyriyə yer yoxdu düz olan yerdə.
Hər kəs razılaşır deyilən sözlə,
Mircəlal haqlıdır dediklərində.

Şəhərdə dostların sayı yetərli,
Görmək istəyirdik əziz dostları.
Hər kəsin qəlbində bir sevgi hissi,
Maşınımız dönür Şirvana sarı.

Beləliklə, dostlar yolüstü Şirvan şəhərinə də gönürlər. Müəllifin Şirvana sevgi ilə yazdığı təsvirlər oxucunun qəlbini oxşayır. Ümumiyyətlə Şirvan adı Azərbaycan tarixinin çox önəmli və şərəfli səhifələrini ünvanlayır.

Düşünürəm ki, belə əsərlərin əsas dəyəri həm də onunla bağlıdır ki, həm insan ünsiyyətinin nəyə qadir olduğunu göstərir, həm də yeri gəldikcə tarixi olayları yada salır. Doğrudan da ünsiyyət insanları bir-birinə bağlayır. alıb. O, istəyib ki, əsəri oxuyanlar mənən bir-birinə bağlansınlar. Bilsinlər ki, doğmalıq olmadan insan yalnız öz hisslərinə qapanıb yaşya bilməz.

Əlbəttə, müəllifin gəncliyi yada salması, sevgi hisslərini xatırlaması, qaynar illərin yaddaşda qalan izlərinə dönüşü də təsadüfi deyil. Yəni yaddaşda olanlar insanın ruhunu qidalandırır, ona mənəvi güc bəxş edir. Bütün hallarda insan insan olan yerdə özünü xoşbəxt hiss edir. Hətta bir-biri ilə münasibəti düz gəlməyən adamlar da tənhalığa düçar olanda bir-birini arzulayırlar. Bu da təsadüfi deyil. Robinzon Kruzo yaşadığı tənha adada özünə hər şəraiti qursa da hər an, hər gün adadan çıxış yolu axtarır. Necə etsin ki, cəmiyyətə, insanların yanına qayıtsın, doğmalarına qovuşsun.

R.Musanın əsərinin dəyəri orasındadır ki, o, insanlara bir-birini anlamaqla doğmalaşmaq hisslərini təlqin edir. Elə uzun yolu qət edib bir dostun görüşünə getməyində məğzində, mahiyyətində doğmalıq hissi, doğmalıq istəyi dayanır:

O illər sevənlər yağış kimiydi,
Sədası şəhərə, gah kəndə düşdü.
Çoxları sevgidə ocaq qaladı,
Odu sönməyənlər "kəməndə" düşdü.

O illər yaşayır xatirələrdə,
Damaqdan getməyib ləzzəti-dadı.
Hanı dəli Kürün dəli çağları?
Suyu süzülübdü, dayazlaşıbdı.

Kimsədən təmənna götürən deyil,
Var olsun Kür çayı - xalqın varıdır.
Yaxşı ki, yaşayır öz axarında,
O, elin-obanın şah damarıdır.

Şirvan şəhərinin Azərbaycanın istər iqtisadi, istərsə də mənəvi həyatında xüsusi yeri var. Bu şəhər Azərbaycanın cavan şəhərlərindəndir. Vaxtilə yeni həyat qurmağa gələn insanlar bu şəhərdə sakin olub, yaşayıb, əməli fəaliyyətləri ilə şəhərin quruculuğunda iştirak ediblər.

Səfər iştirakçıları yuxarıda haqqında qismən bəhs etdiyim Vilayətlə görüşü də həyəcanla gözləyirlər. Onun bir müəllim,ziyalı ömrü yaşadığı şəhərə bir sakin kimi əsas mənəvi borcu hörmət və nüfuz gətirməsidir. Bəli, dostlar Vilayətin əhvalını öyrənir, onun da qonağı olurlar. Onun doğmalığı da müəllifin səmimi qələmi ilə bədii salnaməyə çevrilir:

Bu şəhər Şirvandı, səs-küydən uzaq,
Ömrünü yaşayır arzularıyla.
Bu elin şöhrəti çoxdan bəllidi,
Aləmə səs salan yazarlarıyla.

Müəllim olsa da, fəhlə olsa da,
Hər bir kəs sevilib qətiyyətiylə.
Tanınıb hər zaman el-obasında
Zəhmət adamları öz zəhmətiylə.

qonaqpərvərliyidir. Qonağa qarşı xüsusi ehtiram, ayrı-ayrı zamanlarda Azərbaycana səyahət etmiş xarici səyahətçilərin də diqqətini cəlb edib. Azərbaycanda hansı qapıya getən, hansı elə, obaya yolun düşsə orda səni gülər üzlə qarşılayar, xüsusi ehtiram göstərər. Səfərinə davam etmək üçün köməklərini əsirgəməzlər. Belə qonaqpərvərliyi Vilayətin timsalında şairin təsviri yerinə düşür. Ümumiyyətlə, bu əsərdə bir səyahətnamə ruhu var. Yol boyu gördüyü təəssüratları yazmaq meyli şairin məqsədinə yaxınlaşmasına xidmət edir. Biz təsvirlər boyu səfər üstə olan hər kəsin münasibətini hiss edirik, duyuruq, yola münasibətini duyuruq, görüşdükləri hər hansı şəxsə münasibətini hiss edirik. Bütün bunların hamısı bir məqrama xidmət edir. Şair B.Vahabzadə demişkən, insanıq, insan da bizə gərəkdir.

İsmayılın ağır, ağayana, təmkinli münasibəti, Saməddinin yumorlu müdaxilələri əsər müəllifinin diqqətindən kənarda qalmır. Necə deyərlər, onları da müşahidə obyektindən gördüyü kimi yazıya gətirir:

Hər kəslə görüşüb, salamlaşdı o,
Maşından düşməyə macal vermədi:
- Buyurun, çay içək, yol yorub sizi
Şirvana gələnin axı nə dərdi?!

İsmayıl dilləndi: "Çox sağ ol, qardaş,
Yolumuz uzaqdı, getsək yaxşıdı".

# ODDAN KEÇMƏYİN YANĞISI,

## *yaxud şair Rafiq Musanın «Od içindən keçən yol» poemasının ikinci hissəsi üzərində düşüncələr*

Mən burada 44 günlük müharibə vaxtı insanların nə qədər doğmalaşdığını yada salmağı özümə borc bilirəm. Həqiqətən müharibə vaxtı insanlar nə qədər doğmalıqla bir-birinə həyan olurdular. Müharibədə şəhid olan hər bir oğulu hər bir Azərbaycanlı ailəsi özünün övladı kimi təsəvvür edirdi.

Rafiq Musanın poemasında ünsiyyət canlı obraz kimi təqdim olunur. Yeri gəlmişkən elə onu da qeyd edim ki, Ə.R.Xələflinin də bütün yaradıcılığında insanların bir-birini ünsiyyətlə başa düşmələrinin təsdiqi qızıl xətt olaraq keçir. Nə isə... Söhbətimdən yanınmaq istəmirəm. Əsərdə fəallığı ilə seçilən Saməddin tez əlaqə saxlayır, Vilayətlə danışır. Bax bu danışığın özü ünsiyyətin əsas göstəricisi kimi üzə çıxır. Dostlar bir-birinə nə qədər doğmalıqla, ərkyana danışırlar. Bütün əsər boyu dostlar müdrik İsmayılın məsləhərlərini eşidir, onun harada, nə qədər dayanmağı, yola necə davam etməyi ilə bağlı fikirləri ilə razılaşırlar:

Saməddin zəng etdi, gecikdirmədən,
Məqsədi-məramı açıb-söylədi.
Vilayət bir azca nəm-nüm eyləyib,
Axırda hamının işi düzəldi.

Aradan vaxt ötüb, illər adlayıb,
Haqqın əmanəti, haqqın səsiyik.
Bu günün dostluğu dünənə bağlı,
Biz ötən illərin tələbəsiyik.

Hər kəsin həyatı bəxtinə bağlı,
Düzü var, enişi, yoxuşu da var.
Əlin çatmasa da, ün yetməsə də,
Şirindən şirindi xatırlananlar.

Bütün əsər boyu müəllif xatirələrə də rəvac verir. Keçmişdə olanlar yada salınır, yumorlu əhvalatlar çözülür...

Bütün bunlar onu göstərir ki, R.Musa əsərini nikbin ovqatla qələmə

Aradan aralı düşsək bə belə,
Yenə dostluğumuz qaydasındadı.

Həyatın axarı öz qaydasında,
Gənclik ömrümüzün baş tacı idi.
Arabir olsa da qayğılarımız,
Sevgimiz gəncliyin meracı idi.

Şirin xatirələr yola nərdivan,
Biz ötən illərin sorağındayıq.
Deyəsən, Şirvana yaxınlaşırıq,
Yəqin, şəhərin də marağındayıq.

Beləcə müəllifin gənclik duyğularını xatırlamaları ilə yanaşı, səfər də davam edir. Onlar Şirvan şəhərinə çatırlar. Budur, Azərbaycan torpağının sinəsindən ilın kimi qıvrılıb keçən Kür gözlərinin önündədir. Kür Azərbaycanın qan damarıdır. Onun suyu ilə Muğan çölləri Azərbaycan torpaqları cana gəlir, bar, bərəkət mənbəyinə çevrilir. Kürü tərənnüm edən nəğmələr xatırlanır. Hətta Kürün aşıb-daşan çağları da yada salınır. İnsanların Kürün dərinliyini ram etmələri ilə onu bara, bərəkətə çevirmək cəhdləri tərənnüm olunur.

Düşünürəm ki, gərək müəllif burada onlara vaxtilə dərs demiş İsmayıl Şıxlını da xatırlayaydı. Çünki onun «Dəli Kür» romanı Azərbaycan ədəbi-mənəvi mühitinə ən dəyərli inci kimi daxil olub. Heç vaxt unudulmayacaq möhtəşəm İsmayıl Şıxlının mötəbərliyi, insansevrliyi bugünkü gəncliyimiz üçün də çox dəyərlidir. Beləliklə, «Dəli Kür»ü tərənnüm edən misralar könlümüzü oxşayır:

Günəşin nurunu əks eləyirdi:
Uzaqdan Dəli Kür göründü gözə.
Uzaqdan-uzağa olsa da belə,
Sanki bir rahatlıq gətirdi bizə.
"Qurbanam sana Kür", bu da ana Kür,
Bugünkü halına özü çaşıbdı.

Sözün yiyəsidi şairlər burda,
Hər kəsə bəllidi söz kəsəriylə.
Tənbəllik etməyib, şöhrət qazanıb
Ürəyə yol tapan əsərləriylə.

Maraqlıdır ki, müəllif Şirvanı təsvir edərkən ötəri də olsa, bu şəhərdə yaşayıb-yaradan yaradıcı insanları da yada salır. Sözə, sənətə dəyər verməyin mənəvi ölçü olduğunu qeyd edir. Çox inamla yazır ki, onların tələbəlik dostu Vilayət bu şəhərdə mənəvi boy artımı ilə fərqlənib. Müəllimliyində qazandığı uğurlar indii də yaddan çıxmır. Onun təşəbbüskarlığı, fəallığı yerli hakimiyyət orqanlarının diqqətini cəlb edir. Onu şəhər İcra Hakimiyyətində işləməyə cəlb edirlər. Həyatının xeyli hissəsini də şəhərin abadlaşmasına, mənəvi mühitinin zənginləşməsinə həsr edib. Vilayət ruh etibarilə Azərbaycanın müstəqilliyini nə qədər arzulayıbsa, bu müstəqilliyin yetərincə qərarlanmasına da elə o qədər ürəklə xidmət edib:

Tələbə həyatı şirindir, qardaş,
Kim onu yaşayıb, onun karıdı.
Bir azdan onunla görüşəcəyik,
Vilayət gəncliyin yadigarıdı.

Vilayət bilirdi gəlişimizi,
Xəbəri var idi hər işimizdən.
Deyəsən, uzaqdan görmüşdü bizi.
Xoşhallıq duyurdu gəlişimizdən.

İcrada onun da yeri görünür,
Hörmət yiyəsidir el-obasında.
Onun da əməyi az olmayıbdı
Parkın, fantanların salınmasında.

Budur, o əl edir uzaqdan bizə,
Bizimlə görüşmək həvəsindədir.
Uzaqdan-uzağa bizə boylanır,
Yaşıl ağacların kölgəsindədi.

Azərbaycan cəmiyyətinin ən üstün dəyərlərindən biri də bizim xalqımızın

Saməddin göz basıb astadan dedi:
- Çox getmə dərinə, "şofer" naşıdı.

Vilayət tələsik qalxdı maşına,
Deyəsən, "şofer"dən deyildi razı.
"Şofer" "cin atı"na" minmişdi sanki,
Maşını tərpədib, artırdı qazı.

Söz-sözü çəkirdi, söhbət-söhbəti,
Hər kəsin qəlbində bir dünya vardı.
Sanki yaşayırdıq xatirələrdə,
Söhbət şirinləşir, yol uzanırdı.

Burada əsərin ikinci hissəsinin birinci bölümü başa çatır. Demək, səfər boyu keçilən yolun hər bir hissəsi fərqli ovqatlar yaradır. Zənnimcə, müəllifin «Od içindən keçən yol» poeması ruhumuzun, varlığımızın diriliyinə xidmət edir. Əli Rza Xələfli özü bu poema haqqında qeyd edir: «Od içindən keçən yol şair Rafiq Musanın yeni əsəridir. Bu poema yaxın tariximizin acılı, iztirablı bir parçasına işıq tutur. Müəllif yaradıcılıq əzabına hünərlə qatlaşıb, səmimi bir əsər yaradıb. O qəhrəmanlarına, eləcə də zamana və həyata çox doğmadır, bağlıdır... Söhbət şair Rafiq Musadan gedirsə, inamla deməliyəm ki, o, çox istedadlı şairdir... həyat onun üçün tükənməz enerji mənbəyi, çox zəngin obrazlar qalereyasıdır». Bəli, Ə.R.Xələflinin bu qeydləri tam yerinə düşür. R.Musa əsəri boyu zəngin insan qalereyası yaradır. Ayrı-ayrı obrazlar gözlərimizin önündən keçi rvə bizə çox doğmalaşırlar. Sanki biz özümüz də elə o səfərdə iştirak edirik.

Doğrusu, elə mən özüm də əsər boyu özümü Qarabağa səfərdə hiss edirəm. Çox intizarla gözləyirəm ki, Lələtəpəni görüm. Azərbaycan Ordusunun dəmir yumruğu ilə dağıdılmış Ohanyan xəttindən keçim.

*(Davamı var)*